Aqrar Xidmətlər Agentliyi

# Qarğıdalı Gövdə Kəpənəyi

## (*Pyrausta nubilalis Hb)*



088-588
axa.gov.az

## Zərərverici haqqında

Qarğıdalı gövdə kəpənəyi qarğıdalının əsas zərərvericisidir. Dişilərin qanadları açıq sarı rəngdədir, üzərində qəhvəyi rəngli ləkə və dişli zolaqlar var.Bədən uzunluğu 13-15 mm-dir.

Tırtıllar 16 ayaqlı olub,sarımtıl bozdur. İri yaşlı tırtıllar mədəni və alaq otları gövdəsi içərisində özlərinə yuva düzəldərək qışlayır.May ayının ortalarından(tem 15-16) tırtıllar puplaşmaya başlayır.Tırtılların puplaşmadan əvvəl kəpənəyin çölə çıxması üçün gövdəsində yol açır.

Puplaşma normal getməsi üçün,rütubət yüksək olmalıdır.Mayın axırları 1-ci nəsil kəpənəklər iyulun əvvəlinəcən uçur, 2-ci nəsil avqustun əvvəlindən sentyabrın əvvəlinədək uçur.Azərbaycanda 2 nəsil verir.Kəpənəklər gecə fəal olur.Uzağa uçmur,pupdan çıxdıqları yer ətrafında 4-5 gündən sonra yumurta qoymağa başlayır.Sıx sahələrdə yarpaq altına 2-7 yumurta olmaqla topa halda yumurta qoyur.Bir dişi 250-350 yumurta qoyur.Çıxan tırtıllar yarpaq damarı içərisinə girir,qidalanmasını və yaşamasını davam etdirir.Tırtıllar tez-tez bir bitkidən digərinə keçir.Payızda onlar bitkinin gövdəsinin aşağı hissəsində toplanır və burada diapauzaya gedir.Kütləvi çoxalması yüksək rütubətli vaxtlara təsədüf edir.

## Mübarizə tədbirləri

**Aqrotexniki :**

- Dibdən biçilməlidir ki tırtıl qalmasın
- Dondurma şumu aparılmalıdı

**Bioloji:**

- Trixoqramma

**Kimyəvi mübarizə**

- Deltametrin tərkibli maddələrdən
- Fosfor üzvi birləşmələrlə mübarizə aparmaq lazımdır.



Zərərverici